Yazan
05.12.13 21:37 -



Kiyevdə ATƏT-in Nazirlər Şurasının iclasındakı çıxışında ABŞ dövlət katibinin müavini Viktoriya Nuland Cənubi Qafqaza geniş yer ayırıb. Ermənistan və Azərbaycan prezidentlərinin görüşünü bölgədə sülhün təminatı kimi qiymətləndirən ABŞ rəsmisi bölgə xalqlarının narahatçılığını xüsusilə vurğulayıb. Onun sözlərinə görə, Dağlıq Qarabağ münaqişəsindən zərərçəkən insanlar artıq neçə illərdir ki, Avropanın köməyini gözləyirlər.

Eyni zamanda Gürcüstandakı vəziyyəti də dəyərləndirən xanım Nuland Gürcüstandakı vəziyyətdən narahat olduğunu deyib: **"Gürcüstanda v□ziyy□t pisl□şib. Avropa d□y□rl□rind□n uzaqlaşma ehtimalı bizi maraqlandırmaya bilm□z. Biz bölg□d□ Avropaya inteqrasiya istiqam□tind□ eyni f□allığın davam etm□sin□ ümid edirik".**